

# Əbədi qardaşlığın gücünün, qüdrətinin ifadəsi

## *Azərbaycan-Türkiyə müttəfiqliyi Cənubi Qafqaza sülh, sabitlik, dayanıqlı inkişaf vəd edir*

***Türk xalqlarının gücü onların şanlı keçmişindədir. Yaradıcıları Mustafa Kamal Paşa Atatürk və Heydər Əliyev olan bu iki qüdrətli türk dövlətinin tarixinə 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə yeni bir şanlı səhifə əlavə olundu. Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə parlamentləri tərəfindən təsdiq olunmasından sonra iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərini özündə əks etdirən yeni dövr başlayıb.***

Türkiyə Vətən müharibəsinin ilk günlərindən Azərbaycanın mübarizəsində daim onu dəstəkləmiş, bununla da haqqın, ədalətin tərəfində olduğunu nümayiş etdirmişdi. Çünki Azərbaycanın işi haqq işi idi. Möhtəşəm qələbənin açarı olan bu həqiqəti hər kəs etiraf etməyə məcbur oldu. Qardaş Türkiyənin Azərbaycana verdiyi birmənalı mənəvi, siyasi və diplomatik dəstək həlledici xarakter daşıdı.

**(davamı 5-ci səhifədə)**

# Əbədi qardaşlığın gücünün, qüdrətinin ifadəsi

***Azərbaycan-Türkiyə müttəfiqliy Cənubi Qafqaza sülh, sabitlik, dayanıql inkişaf vəd edir***

**(əvvəli 1-ci səhifədə)**

Biz inanılmazı ona görə həyata keçirə bildik ki, Türkiyə bütün gücü ilə arxamızda oldu, əlimizdən tutdu, düşmənin havadarlarına göz açmağa, tərpənməyə imkan vermədi. Mövlud Çavuşoğlunun Bakıda dediyi kimi, Azərbaycan dünyaya Türkün gücünü göstərdi.

Azərbaycan və Türkiyənin xarici siyasətlərində qarşılıqlı münasibətlərin inkişafı prioritet məsələdir. Burada hərbi əməkdaşlıq mühüm strateji istiqamətdir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında Sazişə əsasən, illik plana uyğun olaraq hər iki dövlətin quru qoşunları və hərbi hava qüvvələrinin birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri bütün Qafqaz bölgəsinə sülh, əmin-amanlıq vəd edir və tarixi əhəmiyyət daşıyır. Bu strategiyanın qorunması Azərbaycan və Türkiyə xalqlarının mənəvi haqqı, dövlətlərimizin beynəlxalq hüquqla müəyyən olunan suveren hüququdur.

Qeyd edək ki, həm Türkiyə, həm də Azərbaycan müstəqil qərarlar verən, siyasi və iqtisadi baxımdan güclü dövlətlərdir və bu gün hər iki ölkənin rəhbərliyi xalqın arzularını dövlətin siyasəti səviyyəsində həyata keçirməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iradəsi sayəsində ikitərəfli münasibətlərimiz getdikcə inkişaf edərək yüksək müttəfiqlik səviyyəsinə çatıb. Məhz liderlərimizin sayəsində Türkiyə-Azərbaycan dostluq və qardaşlığı dünya miqyasında da yüksək qiymətləndirilir. Qardaş Türkiyənin beynəlxalq aləmdəki yerinin və rolunun sürətlə güclənməsini təmin edən başlıca amillərdən biri də Azərbaycanın iqtisadi müstəqilliyidir. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi uzaqgörən enerji strategiyası Azərbaycanla yanaşı, Türkiyənin də ümumi həyatına əlavə güc qatıb.Türkiyənin nəqliyyat-tranzit və enerji daşıyıcılarına dair layihələri ölkə daxilində istehsal həcminin sürətlə artması üçün böyük perspektivlər yaradıb. Zəngəzur dəhlizinin açılışı ilə Qars-Naxçıvan-Bakı yeni dəmir yolu xətti Anadolunu çoxşaxəli istehsal məkanına çevirəcək. Bakı-Tbilisi-Qars kimi, Qars-Naxçıvan-Bakı dəmir yolu da məhz Azərbaycan və Türkiyənin layihəsidir. Hər iki dəmir yolu yük axınını artırmaqla bir-birinin işində dinamizmi yüksəltməyə təkan verəcək.

Təəssüf ki, Ermənistan regionda kommunikasiya xətlərinin açılmasını ləngitməklə özünü də çətin və acınacaqlı vəziyyətə salır. Bu gedişlə Ermənistandakı bugünkü mövcud durum daha da mürəkkəbləşəcək, bu isə ölkənin gələcək taleyini böyük sual altına qoyacaq. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan torpaqlarının 20 faizini 30 il müddətində işğal altında saxladığı üçün Azərbaycan Prezidenti İlham Əliyevin düzgün, düşünülmüş siyasəti nəticəsində Ermənistan bölgədə həyata keçirilən bütün layihələrdən kənarda qalıb və inkişafdan məhrum qalan bir dövlətə çevrildi. 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi tarixi Zəfərdən sonra Ermənistan daha rəzil duruma düşdü. Bu gün Ermənistanda siyasi, iqtisadi, sosial, psixoloji, hərbi və digər bütün sahələrdə böhran hökm sürür. İmkanı olan Ermənistanı tərk edir və beləliklə, əhalinin sayında ciddi azalma müşahidə olunur. Hazırkı reallıqlar fonunda Ermənistanın yeganə çıxış yolu qonşu ölkələrlə, xüsusilə, Azərbaycanla münasibətlərin tənzimlənməsindən keçir. Ermənistan beynəlxalq hüquq çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü tanımalı, Azərbaycanla sülh müqaviləsi imzalamalı və bununla da regionda kommunikasiyaların açılmasına əngəl olmamalıdır. Bu, daha çox Ermənistana lazımdır. Ermənistan ağır böhrandan çıxmaq üçün Azərbaycanla münasibətləri tənzimləməli, eyni zamanda sərhədlərin demarkasiya və delimitasiyasını başa çatdıraraq, kommunikasiyaların açılmasına nail olmalıdır. Azərbaycan Prezidenti dövlətin xarici və daxili siyasətinin ana xəttinin mahiyyətinin, iqtisadi və müdafiə prinsiplərinin başlıca istiqamətlərini müəyyən etməklə yanaşı, məğlub edilən Ermənistanda yeni müharibə ssenariləri cızan revanşist qüvvələrə sərt mesajlar verir, "Dəmir yumruğ"un növbəti zərbəsinin daha sərt və amansız olacağını bəyan edir.

Azərbaycanın 5 maddədən ibarət sülh təklifini həm Avropa İttifaqı, həm də beynəlxalq ictimaiyyət qəbul edib. Ekspertlərin qənaətinə görə, bu istiqamətdə Ermənistan tərəfindən konkret addımlar atılması regional təhlükəsizliyin təmin olunmasına sözsüz ki, töhfəsini verə bilər. Amma baş nazir Paşinyan beynəlxalq görüşlərdə sərgilədiyi mövqeyin tam əksinə olaraq, daxili auditoriyanın xoşuna gələcək ziddiyyətli açıqlamalar verir. Ermənistanın baş naziri N.Paşinyanın münaqişənin sülh yolu ilə həllinə şansı olmasına baxmayaraq, o, bundan istifadə edə bilmədi və tarixi səhvə yol verdi. Sarkisyanın, Köçəryanın və Ohanyan rejiminin yolunu tutdu. Onun bu səhvi Ermənistanı bugünkü acınacaqlı vəziyyətə yuvarladı. Tarix ermənilərə ikinci şansı verdi. Yenə revanşizm ideyalarına yer verir, müharibədən danışırlar. Ermənistanda Paşinyan əleyhinə keçirilən aksiyalar da dolayısı ilə erməni müxalifətinin konyuktur maraqlarına xidmət edir. Ermənistan tərəfi anlamalıdır ki, yalnız bölgədə yaranmış yeni reallıqların və imkanların düzgün şəkildə dəyərləndirilməsi doğru nəticələrə gətirib çıxara bilər.

Ermənistanın baş naziri Nikol Paşinyan həmçinin Ermənistan cəmiyyətində mövcud olan dərin psixoloji problemləri də etiraf edir. Ermənistan cəmiyyəti və dünya erməniliyinin şüuruna türkün düşmən olması ideyası yeridilib. Bunun əksini demək istəyən hər bir ermənini "türk" və ya "türkə xidmət edən" adlandıraraq düşmən elan edirlər. Ermənistanın baş naziri Nikol Paşinyanın "özünüzü türk hesab edirsinizmi?" sualına verdiyi cavab Ermənistanda qalmaqala səbəb olub. Belə ki, erməni teleqram kanallarında yayılan görüntülərdə Paşinyan özünü türk hesab etdiyini bildirib. O, jurnalistin ünvanladığı: "Özünüzü Türk hesab edirsinizmi?" - sualına - "Bəli, bəli", - deyə cavab verib. Şübhəsiz, Ermənistanın Baş naziri Nikol Paşinyanın cavabı siyasi ironiya təsiri bağışlayır. Yəni Ermənistanın gələcəyi, blokadadan çıxması, nicat yolu türk dünyası ilə əlaqələrdən asılıdırsa, türk olmağa hazır olduğunu deyir. Görünür, Paşinyan həm də ona qarşı edilən ittihamların gülməli və mənasız olmasını vurğulamaq üçün bu cür cavab verib. Söhbət ondan gedir ki, Paşinyan bu və ya digər dərəcədə ermənilərə mövcud reallıqları başa salmağa çalışır. Təəssüf ki, Ermənistanda kimlərsə hələ də özlərinin uydurduqları özgə bir reallıqda yaşayırlar. Yəqin Paşinyan da belələrinə bu cür cavab verməyi doğru sayıb. Məhz bu, Ermənistanın baş nazirinin çıxılmaz vəziyyətə yuvarlandığını göstərir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da keçirilən "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılış mərasimində müharibədən sonrakı vəziyyət, Qafqazda regional təhlükəsizliklə bağl yanaşmaları ifadə edən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, Azərbaycan müharibədə qalib gəldi, müharibə ədalətli idi, labüd idi və ədalətin, beynəlxalq hüququn və Azərbaycan xalqının milli ləyaqətinin bərqərar olunması ilə nəticələndi. İndi sülh haqqında danışırıq. Belə uzunmüddətli qarşıdurmadan sonra ədaləti bərqərar edən və təcavüzkarı məğlub edən ölkənin qısa müddət ərzində sülh təklif etməsi dünyada nadir hallardan biridir. Müharibələr tarixində belə hallara rast gəlinmir. Sülhü seçməklə ölkəmiz Cənubi Qafqazda sabit, dayanıqlı inkişaf görmək istəyir. Bu, nadir fürsətdir. Dövlət başçımız deyib: "Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir. Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgəyaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, vacib məsələdir, Azərbaycanın bunu tələb etməyə haqqı var. Birincisi, Ermənistan hökuməti müvafiq Bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkmiş ölkə olaraq bizim bunu tələb etməyə mənəvi haqqımız var".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2022.- 21 iyun.- S.1;5.